# Türkiyə Respublikasında kəşfiyyat və əks-kəşfiyyat təşkilatının yaranmasında Qazi Mustafa Kamal Atatürkün rolu

**Mirzə Ənsərli**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun böyük elmi işçisi*



Mustafa Kamal Atatürk 1981-ci il mayın 19-da Osmanlı imperiyasının Selanik şəhərində (hazırda bu şəhər Yunanıstan dövlətinin ərazisindədir) anadan olmuşdur. Atası Əlirza əfəndi Qızıl – Oğuz, ya da Kocacık yürüklərindən və anası Zübeydə xanım isə Anadoludan buraya köçürülmüş Konyarlar tayfasının Sofuzadələr nəslindəndir.

O təhsilini 1886 – 1904-cü illərdə, əvvəl Selanikdə mülki məktəbdə, sonra Selanikdə Hərbi Rüşdiyyədə, Manastırda Hərbi Məktəbdə və İstanbulda Hərbi Akademiyada almışdır. Selanik Hərbi Rüşdiyyəsində oxuyan zaman onun istedadını görən müəllimi gənc Mustafaya Mustafa Kamal adını verir.

Mustafa Kamal general-mayor rütbəsinə kimi yüksələrək Osmanlı ordusunda hərbi xidmətdə olmuşdur. Bu zaman o diviziya, korpus, ordu və ordular qrupunun komandanı olmuş, Balkan müharibələrində və I Dünya müharibəsində bir çox döyüşlərdə iştirak etmişdir. 1902-ci ildə leytenant, 1903-cü ildə baş leytenant, 1904-cü ildə kapitan, 1911-ci ildə mayor, 1914-cü ildə polkovnik-leytenant, 1915-ci ildə polkovnik və 1916-cı ildə isə general-mayor hərbi rütbəsi almışdır. Onun komandanı olduğu diviziya Çanaqqala və Anafarta döyüşlərində qəhrəmanlıq göstərmiş və ingilis və fransız qoşunlarının dənizdən quruya çıxmalarına imkan verməmişdir.

1911-ci ildə İstanbulda Osmanlı imperiyası ordusunun Baş Qərargahında çalışmışdır. 1913-cı ildən 1915-ci ilin yanvar ayına kimi Bolqarıstanın mərkəzi Sofiya şəhərində Osmanlı dövlətinin səfirliyində hərbi attaşe olmuşdur.

Hərbi xidməti zamanı iki dəfə (1915-ci il sentyabrın 27-də Qrup komandanlığından və 1917-ci il oktyabrın 4-də VII Ordu komandanlığından) tutduğu vəzifəsində istefa vermişdir.

Vəliəhd Vahidəddin paşa ilə birlikdə Almaniyada olmuşdur (15 dekabr 1917 – 4 yanvar 1918). Bu səfər zamanı onlar bir-birilərini yaxından tanımışdılar. Vəliəhd Vəhidəddin 1918-ci il iyulun 3-də sultan olduqdan sonra Mustafa Kamal paşa onunla 1918-ci il avqustun 16-da, noyabrın 15-də və 22-də, dekabrın 20-də və 1919-cu il mayın 15-də görüşərək dövlətin və millətin gələcək taleyi ilə bağlı bir çox vacib məsələləri müzakirə etmişdir. Mustafa Kamal paşaya 1918-ci il sentyabrın 23-də Sultanın fəxri yavəri statusu verilir.

Sultan onu 1919-cu il aprelin 30-da Anadoluda yerləşən IX Orduya müfəttiş təyin edir. Mustafa Kamal paşa mayın 15-də son dəfə sultanla görüşərək müəyyən tapşırıqlar alır və mayın 16-da İstanbuldan Anadoluya yola düşür. 1919-cu il mayın 19-da Samsuna çatan Mustafa Kamal paşa bu tarixdən imperiyanı parçalamağa çalışan düşmən qüvvələrinə qarşı Anadoludan milli mübarizəni başlamağa qərar verir. Onun hərəkətlərindən təşvişə düşən ingilis generalları Miln və Kalthorpe nazirdən Mustafa Kamal paşanın geri çağırılmasını istəyirlər.



Onun rəhbərliyi altında Ərzurumda (23 iyul 1919 – 7 avqust 1919) və Sivasda (4-11 sentyabr 1919) konqreslər keçirilir. 1919-cu il dekabrın 27-də Ankaraya gəlir və 1920 ci il aprelin 23-də onun təşəbbüsü ilə Türkiyə Böyük Millət Məclisi öz işinə başlayır. Mustafa Kamal paşa aprelin 24-də Məclisin sədri seçilir.

İstanbul hökuməti 1919-cu il iyunun 23-də onu vəzifəsindən azad edir . Mustafa Kamal paşa İstanbul hökumətinin bu hərəkətinə cavab olaraq iyulun 8-də hərbi xidmətdən istefa verir. Bundan sonra hökumət iyulun 29-da onun həbs edilməsi qərarını verir. 1920-ci il mayın 1-də isə İstanbul Hərbi Məhkəməsi tərəfindən onun barəsində edam qərarı çıxarılır.

1921-ci il sentyabrın 12-13-də Sakarya cəbhəsində türklər qəti qələbə çalırlar. Bundan sonra ona Türkiyə Böyük Millət Məclisi tərəfindən marşal hərbi rütbəsi və qazi adı verilir. Gələcəkdə, yəni 1934-cü il noyabrın 24-də qəbul edilmiş soyad qanununa əsasən ona Atatürk soyadı verilir.

1922-ci il sentyabrın 10-da İzmir azad edilir. 1923-cü il avqustun 13-də ikinci dəfə Türkiyə Böyük Millət Məclisinə sədr seçilir.

1923-cü il oktyabrın 29-da dağılmış və parçalanmış Osmanlı imperiyasının ərazisində yeni tipli bir dövlət – Türkiyə Respublikası elan edilir. Dövlətin ilk prezidenti isə Qazi Mustafa Kamal paşa seçilir. O bu vəzifəyə 2-ci dəfə 1927-ci il noyabrın 1-də, 3-cü dəfə 1931-ci il mayın 4-də və 4-cü dəfə 1935-ci il martın 1-də seçilmişdir.

Onun hakimiyyətdə olduğu illərdə ölkə ərazisində bütün sahələrdə islahatlar keçirilmişdir.

Uzun sürən xəstəlikdən sonra 1938-ci il noyabrın 10-da İstanbulda Dolmabaxça sarayında vəfat edir. Cənazəsi Ankaraya gətirilərək Etnoqrafiya Muzeyində dəfn olunur. 1953-cü il noyabrın 10-da nəşi Anıtqəbrə köçürülür.

M. K. Atatürk ölkə ərazisində hüquq sistemində yeni dəyişikləri vacibliyini nəzərə alaraq bu sahəyə xüsusi diqqət yetirmişdir. Onun təşəbbüsü ilə dövləti həm daxili, həm də xarici təhlillərdən qoruya biləcək müasir tələblərə cavab verən kəşfiyyat və əks-kəşfiyyat orqanları yaradılmışdır. Biz bu dairədə qısa da olsa məlumat verməyə çalışacağıq.

Qədimdən bəri istər böyük, istərsə də kiçik dövlətlər həmişə öz təhlükəsizliklərini təmin etmək üçün güclü ordu yaratmağı qarşılarına məqsəd qoymuşdular. Dövləti idarə edənlər ölkəni həm xarici, həm də daxili təhlükələrdə qorumaq üçün təhlükəsizlik orqanlarının yaradılmasını da diqqət mərkəzində saxlamışdılar. Həm Osmanlı imperiyasında, həm də Türkiyə

Respublikasında kəşfiyyat və əks-kəşfiyyat təşkilatları da fəaliyyət göstərmişdi və göstərməkdədir. 1880–1926-cı illərdə Osmanlı dövlətində və Türkiyə Respublikasında "Yıldız İstihbarat Təşkilatı" (1880–1908), "Təşkilat-i Məxsusə" (1913–1918), "Karakol Cəmiyyəti" (1919–1920), "Zabitan", "Yavuz", "Hamza" və "Felah" qrupları (1920 – 1921), "Hərbi Polis Təşkilatı" (AP və ya P) (1920 – 1921), "Tədqiqat Heyəti Əmirlikləri" (1921–1922), "Silahlı Milli Müdafiə Qrupu" (MimMim Qrupu) (1921–1923) adlı kəşfiyyat və əks-kəşfiyyat təşkilatları mövcud olmuşdur.

1923-1926-cı illərdə kəşfiyyat və əks-kəşfiyyat işləri ilə orduların nəzdində olan kəşfiyyat şöbələri məşğul olmuşdular. Mustafa Kamal Atatürk hələ Osmanlı ordusunda qulluq edən zaman "Təşkilat-i Məxsusə"nin üzvü olmuşdur. O, kəşfiyyat fəaliyyətinə çox əhəmiyyət vermiş və bu səbəbdən də onun təşəbbüsü ilə 1926-cı ildə müasir dövrün standartlarına uyğun "Milli Təhlükəsizlik Xidməti" (MTX) adlı kəşfiyyat təşkilatı quruldu. 1965-ci ildə həmin təşkilatın bazası əsasında Milli Kəşfiyyat Təşkilatı (MKT) yaradıldı. M.K. Atatürk ömrünün sonuna qədər MTX-nin fəaliyyətini diqqət mərkəzində saxlamışdı.

**"Yıldız İstihbarat Təşkilatı"**

Təşkilat 1880-ci ildə Sultan II Əbdülhəmid xan tərəfindən yaradılmışdır. Az müddətdə təşkilatın xəfiyyələri həm ölkə daxilində, həm də xaricində uğurlu əməliyyatlar keçirərək imperiya əleyhinə olacaq planların bir hissəsinin reallaşmasının qarşısını almışdılar. 1908-ci ildə Sultan II Əbdülhəmid xan xarici qüvvələrin dəstəyi və köməyi ilə "İttihat və Tərəqqi Partiyası" tərəfindən zorla hakimiyyətdən kənarlaşdırıldı. Bundan sonra təşkilat öz fəaliyyətini dayandırdı. Onun təcrübəli əməkdaşları fəaliyyətlərini sonralar "Təşkilat-i məxsusə"də və başqa kəşfiyyat qruplarında davam etdirmişdilər.

**"Təşkilat-i məxsusə"**

Osmanlı dövlətinin son illərində iqtidarda olan " İttihat və Tərəqqi Partiyası"nın rəhbərləri – Tələt paşa, Ənvər paşa və Camal paşa həm daxili, həm də xarici təhlükələrdən vaxtında xəbər tutmaları üçün sistemli və təşkilatlanmış bir kəşfiyyat və əks – kəşfiyyat orqanının yaradılmasının vacibliyini irəli sürdülər.

1913-cü il noyabrın 17-də müdafiə naziri və silahlı qüvvələrin Baş komandanı Ənvər paşa tərəfindən "Təşkilat-i məxsusə" adlı kəşfiyyat və əks – kəşfiyyat təşkilatı quruldu. Təşkilat 1918-ci il oktyabrın 30-da Osmanlı imperiyası ilə Antanta dövlətləri arasında Lemnos adasının Mudros limanında "HMS Aqamemnon" adlı ingilis hərbi gəmisində imzalanan Mudros müqaviləsindən sonra fəaliyyətini dayandırdı.

Təşkilat yarandığı gündən Osmanlı imperiyasının ərazisində baş vermiş hadisələrin mərkəzində olmuşdur. Onlar daxildə və xaricdə satqınlara, cəsuslara və ölkənin əleyhinə çalışan bütün bölücü qüvvələrə qarşı amansız mübarizə aparmışlar. Təşkilatın Qafqazda, Hindistanda, Əfqanıstanda, Pakistanda, Orta Asiyada, Trablusqərbdə, Ərəbistan yarımadasında və Balkan ölkələrində də təcrübəli üzvləri fəaliyyət göstərmişlər. "Təşkilat-ı məxsusə" demək olar ki, Ənvər paşanın rəhbərliyi altında olmuşdur. Sultan V Rəşadın da təşkilat haqqında məlumatı olmuşdur.

Təşkilatın üzvləri arasında gənc zabit Mustafa Kamalın adı da çəkilmədədir. Onun haqqında Əşrəf Quşçubaşının (Səncər) xatirələrində və Filip H.Stoddart adlı bir tədqiqatçının Priston Universitetində müdafiə etdiyi "Təşkilat-i məxsusə" adlı dissertasiyasında məlumatlar mövcuddur.

Mustafa Kamal hələ 1905-ci ilin oktyabrında Şamda gizli olaraq "Vətən və Hürriyyət Cəmiyyəti" ni qurmuşdur. Sonralar bu kimi kiçik cəmiyyətlər "İttihat və Tərəqqi Cəmiyyəti"nin ətrafında birləşmişlər. Mustafa Kamal "İttihat və Tərəqqi Cəmiyyəti"nə 1907-ci il oktyabrın 29-da üzv olmuşdur. Onu da qeyd edək ki, "Təşkilat-i məxsusə"nin əsasını "İttihat və Tərəqqi Cəmiyyəti"nin üzvləri təşkil edirdi. Mustafa Kamal iki dəfə təşkilatın xüsusi tapşırığını yerinə yetirmişdir. Təşkilat onu 1908-ci ilin sentyabrında Trablusqərbə, noyabrında isə Bosniyaya göndərmişdir. O, Binqazi ətrafında gedən hadisələrlə bağlı tədqiqat aparmışdır. Onun burada olması Binqazidəki fransız konsulunun diqqətini cəlb etmişdir. Bosniyada olan zaman isə Avstriya–Macarıstan hökumətinin Bosniya-Hersoqovina sərhədinə qoşun yığması ilə əlaqə-

dar material toplamışdır O, Taşlıcada 35-ci briqadanın komandiri mayor Fevzi Çakmaqla (daha sonra marşal Fevzi Çakmaq) tanış olur və ondan xeyli məlumat öyrənir. Onun verdiyi raportda göstərilir ki, qoşun serblər üçün yığılmışdır.

Mustafa Kamal ikinci dəfə Trablusqərbdə könüllü olaraq yenə də təşkilatın tapşırığı ilə olmuş və italiyalılara qarşı vuruşmuşdu. O burada döyüşən dəstələrdən birinin komandiri olmuşdur.

1914-cü ildə Ənvər paşa, Süleyman Əsgəri, Əşrəf Səncər (Quşçubaşı), Bahəddin Şakir, Mithət Şükrüdən (Bleda) təşkil olunmuş rəhbər heyətə "İttihat və Tərəqqi Cəmiyyəti"nin tanınmış üzvlərindən Kiçik Kamal (Qara Kamal), Yenibaxçalı Nail bəy, mayor Hüsaməddin Ərtürk, Trabzonlu Rza bəy də daxil oldular.

**"Karakol Cəmiyyəti"**

Antanta Mudros müqaviləsindən sonra 1918-ci il noyabrın 13-də İstanbulu işğal etdi. İşğaldan sonra ilk müqavimət göstərənlərdən biri də 1919-cu il fevralın 5-də İttihat və Tərəqqi Cəmiyyətinin üzvləri polkovnik Qara Vasif, istefada olan kapitan Baba Səid bəy, polkovnik Şövkət və Şükrü bəy tərəfindən qurulmuşdu. Qısa zamanda təşkilatlanan bu cəmiyyətin Milli Mücadiləyə etdiyi ən böyük xidməti İstanbuldan Anadoluya silah və zabitlərin çatdırılması olmuşdur. Onlar Antantaya daxil olan müttəfiqlərin planlarını öyrənib Mustafa Kamal paşaya xəbər verirdilər. Ancaq, Cəmiyyət bolşeviklər ilə gizli əlaqələr qurduqlarından və özbaşlarına Milli Mücadiləyə sahib çıxmaq cəhdləri səbəbindən Anadolu Ordusuna daxil edilmədi. Cəmiyyət fəaliyyətini ingilislərin 1920-ci il martın 16-da İstanbulda ittihatçı liderləri həbs etmələrindən sonra dayandırdı.

**"Zabitan", "Yavuz", "Hamza", "Fəlah" qrupları.**

Karakol Cəmiyyəti dağıldıqdan sonra "Xilaskar Zabitan" və "Yavuz"  qrupu kimi müxtəlif kəşfiyyat qrupları təşkil edildi. 1920-ci il fevralın 23-də fəaliyyətə başlayan "Hamza" qrupunun adı 1921-ci il avqustun 31-də "Fəlah" qrupu olaraq dəyişdirildi. Bu kəşfiyyat qrupları Qurtuluş Savaşının sonuna kimi fəaliyyət göstərmişdilər.

**Hərbi Polis Təşkilatı**

Kəşfiyyat orqanları arasındakı dağınıqlığı aradan qaldırmaq üçün və eyni zamanda düşmənin casusluq fəaliyyətinə və zərərli təbliğatına qarşı Anadoludakı qoşunların Baş Qərargahı 1920-ci il iyulun 18-də Hərbi Polis Təşkilatı (AP və ya P) adlı yeni mükəmməl bir kəşfiyyat və əks-kəşfiyyat təşkilatı yaratdı. Müharibə illərində uğurlu əməliyyatlar keçirməyə nail olmuş təşkilatın fəaliyyətinə 1921-ci il martın 21-də son verildi.

Hazırda Türkiyə Silahlı Qüvvələrinin tərkibində olan Jandarma Baş Komandanlığının Hərbi Polis Təşkilatının əsasında yarandığı söylənilir.

**"Tədqiq Heyəti Əmirlikləri"**

"Hərbi Polis Təşkilatı"nın bağlanmasından sonra bir müddət kəşfiyyat fəaliyyətləri sahəsində boşluq yarandı. Baş Qərargah bu boşluğu doldurmaq üçün 1921-ci il aprelin 1-də "Tədqiq Heyəti Əmirlikləri" adlı bir kəşfiyyat təşkilatı qurdu. Bu təşkilat 1922-ci il iyunun 22-nə kimi Anadolunun müxtəlif şəhərlərində kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə məşğul olmuşdur.

**"Müsəlləh Milli Müdafiə Qrupu" (Mim Mim Qrupu)**

Əldə edilən təcrübələrə əsaslanaraq müəyyən olunmuş hədəflərə çatmaq üçün bu dəfə Ənvər paşa tərəfindən "Müsəlləh Milli Müdafiə Qrupu" adlı kəşfiyyat və əks-kəşfiyyat təşkilatı quruldu. Türkiyə Böyük Millət Məclisi (TBMM) 1921-ci il mayın 3-də qısa adı "M.M." (MİM MİM) olan bu təşkilatı rəsmən tanıdı. "Tədqiqat Heyəti Əmirlikləri" təşkilatı Anadoluda fəaliyyət göstərdiyi zaman M.M. təşkilatı hərbiçilərdən və mülkü şəxslərdən ibarət olan kadrları ilə İstanbulda böyük bir casus və məlumat toplama şəbəkəsi qurmağa nail olmuşdu. Təşkilat Anadoluya silah və başqa hərbi ləvazimatları çatdırır və düşmən qərargahlarına sızaraq mühüm məlumatlar əldə edirdi. Onlar başqa kəşfiyyat orqanları ilə də əlaqə saxlayırdılar. Təşkilat İstanbulun qurtuluşuna kimi (5 oktyabr 1923-cü il) fəaliyyət göstərmişdir.

**"Milli Təhlükəsizlik Xidməti"**

Türkiyə Respublikasının qurulmasından (29 oktyabr 1923) sonra 1926-cı ilə kimi kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə Ordu Müfəttişliklərinin kəşfiyyat şöbələri məşğul olmuşdular.

1925-ci ilin sonunda Türkiyə Respublikasının prezidenti Qazi Mustafa Kamal paşa inkişaf etmiş dövlətlərdəki kimi müasir tələblərə cavab verən kəşfiyyat və əks-kəşfiyyat təşkilatı qurulması təlimatını verir. Bundan sonra Baş Qərargah rəisi marşal Fevzi Çakmakın 6 yanvar 1926-cı il tarixli əmri ilə Türkiyə Respublikasının Milli Təhlükəsizlik Xidməti (MTX) adlı ilk kəşfiyyat və əks – kəşfiyyat orqanı quruldu. Təşkilat 5 yanvar 1927-ci il tarixində Daxili İşlər Nazirliyinə tabe edildi . 6 yanvar 1926-cı il ilə 5 yanvar 1927-ci il tarixləri arasındakı bir illik dövr çalışmaları iqtidarda olanlar tərəfindən təşkilatın qurulmasının hazırlıq dövrü kimi qəbul olundu və bir gün sonra, yəni 6 yanvar 1927-ci il tarixi MTX-nin quruluş tarixi olaraq qəbul edildi. MTX-nin qurulmasında I Dünya müharibəsindən (1914-1918) əvvəl və müharibə zamanı Almaniya hərbi kəşfiyyatının rəhbəri olmuş və sonra istefaya çıxmış polkovnik Valter Nikolainin böyük xidməti olmuşdur.

MTX-ə aşağıda adı çəkilən şəxslər rəhbərlik etmişdilər: 1.Şükrü Əli Ögel (1926–1941), 2.Mehmet Naci Perkel (1941-1953), 3.Behçet Türkmen (1953-1957), 4.Emin Çobanoğlu (1957), 5.Prof. Dr. Hüseyn Avni Goktürk (1957-1959), 6.Əhməd Salih Korur (18 aprel – 23 sentyabr 1957; 21 iyul – 2 oktyabr 1959), 7.Əhməd Cəlaləddin Karasapan (1959 – 1960), 8. Ziya Selışık (1960–1961; 1964–1965), 9.Naci Aşkun (1960–1961), 10.Mehmet Fuad Doğu (1962–1964).

1965-ci il iyulun 22-də MTX-nin yerinə Milli Kəşfiyyat Təşkilatı (Türkiyə türkcəsində Milli İstihbarat Təşkilatı) quruldu. Bu təşkilat bu gün də fəaliyyət göstərməkdədir.

**Ədəbiyyat:**


1.Ali Fuat Cebesoy, Sınıf arkadaşım Atatürk: Okul ve genç subaylık hâtıraları, İnkılâp ve Aka Kitab evleri, 1967.

2.Arif Cemil, I Dünya Savaşında Teşkilat–ı Mahsusa, İstanbul, 1997.

3.Atatürkün Söylev ve Demeçleri (1918 – 1937), 3. Baskı, Toplayan: Nimet Arsan, Ankara, 1981.

4.Celâl Erikan, Komutan Atatürk, Türkiye İş Bankası Kültür Yayınları, Ankara, 1972.

5.Ertürk, Hüsamettin. İki Devrin Perde Arkası, İstanbul, 1996.

6.J.Blanco Villalta, Atatürk, Çey. Fatih Özsu, Ankara, 1982.

7.Niyazi Ahmet Banoğlu, Atatürk'ün İstanbul'daki Hayatı, 2. cilt, Millî Eğitim Matbaası, 1974.

8.Ortaylı, İlber . "Başkomutanın Sofya yılları". Milliyet. 6 Mart 2016 .

9.Ögel, Şükrü Ali. "Milli Emniyet Hizmeti Nasıl Kuruldu?", Türk Kültürü, Sayı: 128 (Haziran 1973), ş. 605-606.

10.Pehlivanlı, Hamit. Kurtuluş Savaşı İstihbaratında Askeri Polis Teşkilatı, Ankara, 1992.

11.Pehlivanlı, Hamit. "Teşkilat-I Mahsusa TÜRK Modern İstihbaratçılığının Başlangıcımı?", Osmanlı, 6. Cilt, Ankara, 1999, s. 285-294.

12.Tuncay Özkan. Milli İstihbarat Teşkilatı. MİT–in Gizli Tarihi. İstanbul, 2015.

13.Zekeriya Türkmen, Mütareke döneminde Ordunun Durumu ve Yeniden Yapılanması (1918-1920), Türk Tarih Kurumu Basım evi, Ankara, 2001.